Azərbaycan Respublikası
Dövlət Reklam Agentliyinin
İdarə Heyətinin 11 dekabr
2024-cü il tarixli
11-3/25-İHQ/24 nömrəli
Qərarı ilə təsdiq edilmişdir

# Reklam yayımı zonalarının bölgüsünün müəyyən edilməsi Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Açıq məkanda reklam yayımına görə ödənilən haqqın məbləği"nin 2.3 və 2.5-ci bəndlərinə uyğun olaraq hazırlanmış və Dövlət Reklam Agentliyi (bundan sonra – Agentlik) tərəfindən açıq məkanda reklam yayımı zonalarının bölgüsünün həyata keçirilməsi və həmin zonalar daxilində reklamın effektivlik dərəcəsinin kateqoriyalarının müəyyən edilməsi qaydalarını tənzimləyir.

1.2. Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərlərinin ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının, həmçinin Dənizkənarı Milli Parkın ərazisi istisna olmaqla) açıq məkanda reklam yayımı zonalarının bölgüsünün və Bakı şəhəri üzrə müvafiq zonalar daxilində reklamın effektivlik dərəcəsinin kateqoriyalarının əks olunduğu xəritələrin hazırlanması bu Qaydalar ilə müəyyən edilir.

## 2. Anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **Reklam yayımı zonaları** – Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərləri üzrə açıq məkanda reklam yayımına görə haqqın müəyyən edilməsi məqsədilə bu Qaydanın 3.2-ci bəndində göstərilən meyarlar əsasında müəyyən edilən ərazilər;

2.1.2. **Reklamın effektivlik dərəcəsinin kateqoriyaları** – Bakı şəhərində açıq məkanda reklam yayımı zonaları daxilində bu Qaydanın 4.2-ci bəndində göstərilən meyarlar əsasında reklamın effektivlik dərəcəsinin 1, 2 və 3 kateqoriyaları üzrə təsnifatı;

2.1.3. **Reklam yayımı zonalarının xəritələri** – bu Qaydaların 1.2-ci bəndində göstərilən şəhərlərin açıq məkanda reklam yayımı zonalarının sərhədlərini və Bakı şəhərinin müvafiq

zonaları daxilində reklamın effektivlik dərəcəsinin kateqoriyalarını əks etdirən elektron və kağız daşıyıcı üzərində təsvir olunan xəritə;

2.1.4. **Ərazi reklam idarələri** – ölkə üzrə açıq məkanda reklam fəaliyyəti sahəsində vahid tənzimləməni və nəzarəti səmərəli həyata keçirmək məqsədilə yaradılmış Agentliyin ərazi struktur bölmələri.

## 3. Reklam yayımı zonalarının müəyyən edilməsi

3.1. Bu Qaydaların 1.2-ci bəndində göstərilən şəhərlərin ərazisi açıq məkanda reklam yayımı üzrə A, B və C zonalarına bölünür.

3.2. Zonalar müəyyən edilərkən aşağıdakılar nəzərə alınmalıdır:

3.2.1. əhalinin sıxlığı;

3.2.2. nəqliyyatın intensivliyi;

3.2.3. yaşayış və ticarət obyektlərinin, onları birləşdirən prospekt, küçə və meydanların sıxlığı;

3.2.4. ətrafdakı ərazilərin təyinatı.

3.3. Aidiyyəti ərazi reklam idarələri bu Qaydaların 3.2-ci bəndində göstərilən meyarlar üzrə məlumatları müntəzəm şəkildə icmallaşdıraraq təhlil edir. Aparılmış təhlilin nəticələri və açıq məkanda reklam yayımı zonalarının yeni bölgüsünə zərurət yarandığı halda, bu barədə əsaslandırılmış təkliflər hər ilin sonunda Agentliyin Aparatına təqdim olunur.

## 4. Reklamın effektivlik dərəcəsinin kateqoriyalarının müəyyən edilməsi

4.1. Bakı şəhərinin açıq məkanda reklam yayımı zonaları daxilində reklamın effektivlik dərəcəsinin 1, 2 və 3 kateqoriyaları müəyyən edilir.

4.2. Reklamın effektivlik dərəcəsinin kateqoriyaları müəyyən edilərkən aşağıdakılar nəzərə alınmalıdır:

4.2.1. reklamın yerləşdiyi yer;

4.2.2. reklamın şəraiti;

4.2.3. reklamın ətrafı;

4.2.4. reklamın auditoriyasının miqyası.

4.3. Aidiyyəti ərazi reklam idarəsi bu Qaydaların 4.2-ci bəndində göstərilən meyarlar üzrə məlumatları müntəzəm şəkildə icmallaşdıraraq təhlil edir. Aparılmış təhlilin nəticələri və müvafiq reklam yayımı zonaları daxilində reklamın effektivlik dərəcəsinin kateqoriyalarının yenidən

müəyyən edilməsinə zərurət yarandığı halda, bu barədə əsaslandırılmış təkliflər hər ilin sonunda Agentliyin Aparatına təqdim olunur.

## 5. Reklam yayımı zonalarının bölgüsünün həyata keçirilməsi və reklamın effektivlik dərəcəsinin kateqoriyalarının müəyyən edilməsi qaydası

5.1. Bu Qaydanın 1.2-ci bəndində göstərilən şəhərlərin açıq məkanda reklam yayımı zonalarının bölgüsü və Bakı şəhəri üzrə müvafiq zonalar daxilində reklamın effektivlik dərəcəsinin kateqoriyalarının müəyyən edilməsi bu məqsədlə yaradılmış işçi qrup tərəfindən həyata keçirilir. İşçi qrupun üzvləri İdarə Heyətinin sədri tərəfindən müəyyən edilir.

5.2. İşçi qrupun vəzifələri aşağıdakılardır:

5.2.1. bu Qaydanın 3-cü hissəsinin tələblərinə uyğun olaraq aparılmış təhlil və aidiyyəti ərazi reklam idarələrinin təklifləri əsasında reklam yayımı zonalarının bölgüsünü və onların sərhədlərini müəyyən etmək;

5.2.2. bu Qaydanın 4-cü hissəsinin tələblərinə uyğun olaraq aparılmış təhlil və aidiyyəti ərazi reklam idarəsinin təklifləri əsasında reklamın effektivlik dərəcəsinin kateqoriyalarını müəyyən etmək;

5.2.3. reklam yayımı zonalarının xəritələrini tərtib etmək;

5.2.4. reklam yayımı zonalarının xəritələrini təsdiq olunması üçün Agentliyin İdarə Heyətinə təqdim etmək;

5.2.5. bu Qaydanın 1.2-ci bəndində göstərilən şəhərlərin ərazisinin dəqiq müəyyən edilməsi məqsədilə müasir informasiya texnologiyaları və digər rəqəmsal vasitələrdən, o cümlədən aktual rəqəmsal xəritələrdən istifadə etmək.

5.3. İşçi qrup öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

5.3.1. açıq istifadədə olan rəsmi statistik məlumatları əldə etmək;

5.3.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, eləcə də digər hüquqi və fiziki şəxslərə sorğu göndərmək və onlardan məlumat əldə etmək;

5.3.3. reklam yayımı zonalarının və reklamın effektivlik dərəcəsinin kateqoriyalarının mövcud vəziyyətini qiymətləndirmək üçün aidiyyəti ərazi reklam idarələrindən məlumat əldə etmək, müvafiq ərazilərdə monitorinq və sahə tədqiqatları aparmaq;

5.3.4. xəritə layihələrinin hazırlanması prosesində müvafiq sahə üzrə mütəxəssisləri və ekspertləri cəlb etmək;

5.3.5. reklam istehlakçıları arasında sorğular keçirmək və reklamın effektivliyinə dair onların fikirlərini öyrənmək.

## 6. Reklam yayımı zonalarının xəritələrinin təsdiq edilməsi qaydası

6.1. Reklam yayımı zonalarının xəritələri Agentliyin İdarə Heyətinin qərarı ilə təsdiq olunur. Təsdiq olunmuş xəritələr Agentliyin internet səhifəsində yerləşdirlir.

6.2. Müvafiq xəritələr bu Qaydaya uyğun olaraq təsdiq olunduğu tarixdən 3 il keçdikdən sonra reklam yayımı zonalarının yeni bölgüsü həyata keçirilə bilər.

6.3. Aşağıdakı hallarda reklam yayımı zonalarının yeni bölgüsü İdarə Heyətinin üzvlərindən birinin təşəbbüsü ilə bu Qaydaların 6.2-ci bəndində göstərilən müddət başa çatanadək həyata keçirilə bilər:

6.3.1. respublika üzrə inzibati ərazi bölgüsündə dəyişiklik olduqda;

6.3.2. təbii fəlakətlər və ya digər fövqəladə hallar nəticəsində ərazi və infrastruktur dəyişikliyi olduqda;

6.3.3. yeni iqtisadi və ya ticarət zonaları yarandıqda.

6.4. Bu Qaydanın 6.3-cü bəndində nəzərdə tutulan hallarda xəritələrə yenidən baxılmasını təklif edən İdarə Heyətinin üzvü müvafiq halları əsaslandıraraq, bu təşəbbüsü İdarə Heyətinə təqdim etməlidir.

6.5. Xəritələrə yenidən baxılması bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulan qaydada həyata keçirilir.